## Şeirlərindən nümunələr

### *Ana ürəyi*

*Mehriban nəfəsli məhəbbətində*
*Kim deyər xəsisdir ana ürəyi?*
*Xeyr, tükənməyən səxavətində*
*Üfüqsüz dənizdir ana ürəyi.*

*Bəzən od-alovlu şimşəyə bənzər,*
*Bəzən bir yanıqlı tütəyə bənzər.*
*Bəzən təzə - yumşaq ipəyə bənzər,*
*Əzizdən əzizdir ana ürəyi.*

*Yansa mənzil-mənzil işıq yayar o,*
*Soyusa övladı yetim qoyar o.*
*Yanmaqdan nə bezər, nə də doyar o,*
*Günəşlə əkizdir ana ürəyi.*

*Dəysə ayağına bir çayın daşı,*
*Göynəyər ananın qəlbinin başıE*
*Yıxılsan, yaranı yuyar göz yaşı,*
*Büllurdan təmizdir ana ürəyi.*

*Səndən zaman-zaman uzaqda gəzsə,*
*Aranda dolaşsa, yaylaqda gəzsə,*
*Bürküdə, yağışda, sazaqda gəzsə,*
*Demə ki sənsizdir ana ürəyi.*

*O böyük ürəyi nə sıx, nə yax sən,*
*Ana əməyinə hörmətlə bax sən!*
*Nə tala, nə xərclə, nə də ki sağ sən,*
*Nə qul, nə kənizdir ana ürəyi.*

*O bir nərə çəksə döyüşdə əgər,*
*Dağlar. Qarlı dağlar baş-başa dəyər.*
*Ay donar, yerində, ulduz göy döyər,*
*Sanma ki acizdir ana ürəyi.*

*Odur kəhkəşanı bütün zamanın,*
*Bizik ulduzları o kəhkəşanınE*
*Doğma sinəsində Azərbaycanın*
*Bakıdır, Təbrizdir ana ürəyi.*

***Əli Tudə***
***Azərbaycan.- 2011.- 8 mart.- S. 6.***

***MƏN NƏ GƏTİRDİM...***

*Mən öz qardaşıma mehman gələndə*
*Bir qələm, bir dəftər, bir can gətirdim*
*Dağların döşünü toplar dələndə*
*Bir ləkə düşməyən vicdan gətirdim.*
*Mən onu günəşdən təmiz saxladım,*
*Canımdan, gözümdən əziz saxladım,*
*Bu kiçik qəlbimdə dəniz saxladım*
*Bir xilqət görmədi, pünhan gətirdim*
*Ucuz tutmasınlar bu sovqatımı*
*Hissimi, duyğumu, ehsasatımı,*
*Mən öz varlığımı, öz həyatımı*
*Doğma qardaşıma qurban gətirdim.*
*Ürək daş deyildir, bir parça ətdir*
*Bəs onu yaşadan hansı qüdrətdir?*
*Bir arzu, bir ümid, bir məhəbbətdir,*
*Mən o məhəbbətdən nişan gətirdim.*
*Qardaşım, illərlə istədin ki sən*
*Öz ana yurdumda azad olum mən…*
*Lakin çəlalımı dağıtdı düşmən,*
*Tək sənə, tək sənə güman gətirdim.*
*Yenə Azərbaycan qan ağlayır, qan*
*O azad olmasa, yaşamam, inan!*
*Gərək mən Təbrizə qayıdan zaman*
*Deyəm ki, təzə bir dövran gətirdim.*

https://www.facebook.com/100044598606493/posts/532019504039944/

https://portal.azertag.az/az/node/26702

**Yaşayanlar görəcəkdir**

*Qarabağın yaylağını*
*Meşə örtmüş duman kimi.*
*Mən gəzirəm qucağını*
*Bir vəfalı mehman kimi.*

*Parçalanmış ana torpaq*
*Bu Qarabağ, o Qaradağ.*
*Lal sərhəddə Araz ancaq*
*Haray çəkir insan kimi.*

*Vətən qızı gözüyaşlı,*
*Dağlar uca, yollar daşlı.*

*Yenə dərdim həddən aşdı,*
*Dalğalandı ümman kimi.*

*Bir yaranmış Azərbaycan!*
*Ayırsa da onu zaman,*
*Görəcəkdir hər yaşayan*
*Bu ölkəni bir can kimi.*

*https://portal.azertag.az/az/node/16752*